16 (1322) 25 aprel - 1 may 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “BİZ ƏNƏNƏVİ TƏRƏFDAŞLARIMIZLA, QARDAŞ ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ İNKİŞAF ETDİRİRİK”



“Azərbaycanı və Mərkəzi Asiyanı əsrlər boyu əməkdaşlıq və dostluq münasibətləri birləşdirir”.

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə mətbuata bəyanatında deyib.

Bu gün Mərkəzi Asiya regionunun, Azərbaycanın yerləşdiyi Xəzər regionunun və Cənubi Qafqazın çox mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan dövlətimizin başçısı xüsusən enerji, nəqliyyat və ticarət sahələrində böyük potensialın olduğunu vurğulayıb.

*“Ən önəmlisi, biz ənənəvi tərəfdaşlarımızla, qardaş ölkələrlə münasibətləri inkişaf etdiririk. Qırğız Respublikası ilə də əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır”*, - deyə Azərbaycan prezidenti qeyd edib.

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib.

## OTUZ ÖLKƏNİ TƏMSİL EDƏN XARİCİ EKSPERTLƏRİN İŞTİRAKI İLƏ LAÇINDA KONFRANS İŞƏ BAŞLAYIB

Aprelin 24-də Laçında 30 ölkədən 64 nüfuzlu ekspertin iştirakı ilə “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” beynəlxalq forumu çərçivəsində konfrans işinə başlayıb.

ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən konfransda akademiklər, sabiq səfirlər və beynəlxalq beyin mərkəzlərinin nümayəndələri davamlı inkişaf və yaşıl enerji ilə bağlı öz təcrübələrini bölüşürlər.

Qeyd edək ki, həmin ekspertlər aprelin 23-də ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda iştirak edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə suallar ünvanlayıblar.




ADA Universiteti və BMTM-in birgə təşkilatçılığı ilə keçirilən 6-cı forum çərçivəsində Laçında təşkil olunan panel müzakirələrdə COP29-a və Azərbaycan yaşıl enerji siyasətinə xüsusi diqqət yetirilməklə, regionda davamlı inkişaf üzrə əldə edilmiş mühüm addımlar müzakirə edilir.

İşğaldan azad olunmuş ərazilər üzrə xüsusi nümayəndələrin çıxışları ilə keçirilən ilk panel müzakirədə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxış edib.

Qarabağda dayanıqlı inkişafa həsr olunan bu panel ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə işə başlayıb.

## “COP29 BEYNƏLXALQ İCTİMAİYYƏTİN AZƏRBAYCANA BÖYÜK HÖRMƏT VƏ DƏSTƏYİNİN TƏZAHÜRÜDÜR”



“Bizim sonuncu görüşümüzdən etibarən bütün hadisələr müsbət məcrada gedir, istər Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, istərsə də sərhədlərin delimitasiyası olsun”.

Bu sözləri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışında deyib. COP29-un Azərbaycanda keçirilməsinin önəmindən danışan dövlətimizin başçısı bildirib:

***“COP29 haqqında danışsaq, əlbəttə ki, bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzahürüdür”.***

## AZƏRBAYCAN PREZİDENTİ QIRĞIZISTANLI HƏMKARINI COP29-A DƏVƏT EDİB

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarovu COP29-a dəvət edib.

Bu barədə dövlət başçısı qırğızıstanlı həmkarı ilə mətbuata bəyanatında bildirib. *“Mən Sadır Nurqujoyeviçi noyabrda COP29 beynəlxalq konfransında iştiraka dəvət etdim”*, - deyən Prezident İlham Əliyev vurğulayıb ki, hər bir görüş həm qarşılıqlı fəaliyyətin, ünsiyyətimizin möhkəmləndirilməsi baxımından, həm də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından mühüm və dəyərlidir.

## “AZƏRBAYCAN QIRĞIZISTAN İLƏ BÜTÜN İSTİQAMƏTLƏRDƏ FƏAL QARŞILIQLI ƏLAQƏLƏRİ DAVAM ETDİRMƏK ƏZMİNDƏDİR”

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarov ilə mətbuata bəyanatında bildirib. Qırğızıstan Prezidentinin səfəri çərçivəsində imzalanan sənədləri xatırladan dövlət başçısı qeyd edib ki, iki ölkə ikitərəfli münasibətlərin möhkəm qanunvericilik bazasını yaradır.

## “AZƏRBAYCAN-QIRĞIZISTAN İNKİŞAF FONDUNUN NİZAMNAMƏ FONDU 4 DƏFƏ ARTIB”

“Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun Nizamnamə fondu 4 dəfə - 100 milyon dollaradək artıb”.

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarov ilə mətbuata bəyanatında bildirib. *“Bu gün, həmçinin Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun Nizamnamə fondu haqqında Sazişə əlavə imzalanıb. Biz Nizamnamə fondunu 4 dəfə - 25 milyondan 100 milyon dollaradək artırdıq. Bunun əsas səbəbi müraciətlərin həddən artıq olmasıdır.*

*Bizə Qırğızıstanda investisiya layihələrinin icrası üçün 40-dan çox müraciətin daxil olması barədə məruzə edilib”*, - deyən dövlət başçısı əlavə edib ki, 100 milyon da son hədd deyil.

## “AVRASİYA İQTİSADİ BİRLİYİNƏ ÜZV ÖLKƏLƏRLƏ ÇOX SIX TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİMİZ VAR”

“Biz Avrasiya İqtisadi Birliyinin bəzi tədbirlərinə Prezident və Baş nazir səviyyəsində dəvət edilmişik”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 23-də ADA Universitetində keçirilən “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışı zamanı söyləyib. Avrasiya İqtisadi Birliyinin tədbirlərində bir dəfə fəxri qonaq kimi iştirak etdiyini xatırladan dövlətimizin başçısı vurğulayıb: *“Ermənistan istisna olmaqla, Avrasiya İqtisadi Birliyinə üzv bütün ölkələrlə Azərbaycanın çox sıx tərəfdaşlıq münasibətləri var”*.

## “AZƏRBAYCAN İQTİSADİYYATI ÖZÜNÜ TƏMİN EDƏN İQTİSADİYYATDIR”

“Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır və hətta böhran vəziyyətində də dayanıqlı artım göstərdi”.

Bu sözləri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışında deyib. *“Bizim xarici borcumuz çox aşağıdır, hətta hazırda ümumi daxili məhsulumuzun 8 faizindən də azdır”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “COP29 ÜÇ CƏNUBİ QAFQAZ ÖLKƏSİ ARASINDA GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN YOL AÇACAQ”

Bu sözləri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışında deyib. *“Hazırda unikal şans yaranıb. Biz bundan məhrum olmuşduq. SSRİ süqut etdiyi zaman sülh şəraitində öz müstəqil həyatına başlamış Baltik dövlətlərindən fərqli olaraq, bizim bölgədə müharibələr gedirdi. İndi həmin səhifəni çevirmək şansı yaranıb. Biz bunu edirik. Düşünürəm ki, COP29 əla fürsətdir”*, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

## HEYDƏR ƏLİYEV BAM LAYİHƏSİNİN İCRASINDA BÖYÜK ROL OYNAYIB



“Bu günlər biz Baykal-Amur Magistralının 50 illiyini qeyd edirik. Hamı yaxşı bilir ki, Sizin atanız bu layihənin icrasında böyük rol oynayıb”.

Bu fikri aprelin 22-də Rusiya Prezidenti Vladimir Putin Moskvada Azərbaycan Prezidenti İlham Əliyev ilə təkbətək görüşdə deyib. Prezident Vladimir Putin Ulu Öndər Heydər Əliyevin BAM-ın tikintisi məsələləri üzrə daimi komissiyaya sədrlik etdiyini xatırladaraq bildirib: ***“Demək olar ki, o, ən böyük layihələrdən birinin, bütün Sovet İttifaqı üçün çox vacib layihə olan BAM-ın rəhbəri olub. Biz buna görə ona çox minnətdarıq və onun əziz xatirəsini yad edirik”.***

# Fəxr edirik ki, azərbaycanlı mütəxəssislər BAM-ın tikintisində fəal iştirak ediblər



"BAM-ın tikintisi Sovet İttifaqının bütün respublikalarını birləşdirib". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 22-də Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə birgə Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşdə deyib. Azərbaycan dövlətinin başçısı qeyd edib: *"Bu, həqiqətən də belədir. Onu (BAM-red.) təsadüfən ümumittifaq tikintisi adlandırmırdılar. Əlbəttə, biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər".*

# "Heydər Əliyev amili Rusiya və Azərbaycanın dövlətlərarası münasibətlərində həmişə mühüm rol oynayıb və oynayacaq"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə birlikdə Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə bildirib.

Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsinə görə BAM inşaatçılarına təşəkkür edən dövlətimizin başçısı Anqoya qəsəbəsindəki vağzala Ulu Öndərin adının verilməsini xatırladıb. ***"BAM inşaatçıları yaxşı bilirlər ki, o, praktiki olaraq piyada, qatarla, vertolyotla, çətin şəraitdə Bratskdan Vladivostoka, Naxodkaya qədər uzun məsafə qət edib, on gün ərzində sevinc və kədərini BAM inşaatçıları ilə bölüşüb"***, - deyə Prezident İlham Əliyev əlavə edib.

# Pekində "Azərbaycanda investisiya və ticarətin təşviqi" konfransı keçirilib

Çinin paytaxtı Pekində "Azərbaycanda investisiya və ticarətin təşviqi" konfransı keçirilib.

Azərbaycanın Çindəki səfirliyinin, ölkəmizin ticarət nümayəndəliyinin, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) və Çin Xarici İnkişaf Assosiasiyasının (CODA) birgə təşkilatçılığı, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə Çinin müvafiq qurumlarının, özəl sektorun, ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

Ölkəmizin Çindəki səfiri Bünyad Hüseynov dövlət başçıları İlham Əliyevin və Si Cinpinin qarşılıqlı etimadı və şəxsi dostluğuna əsaslanan münasibətləri, onların sıx təmasları və səyləri sayəsində Azərbaycan-Çin münasibətlərinin dinamik inkişafla keyfiyyətcə yeni mərhələyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Ölkəmizin Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu diqqətə çatdıran diplomat Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti də daxil olmaqla Azərbaycanın həyata keçirdiyi nəqliyyat və infrastruktur layihələrinin həmin təşəbbüsün icrasına əhəmiyyətli töhfələr verdiyini, Çindən Avropaya və geriyə yüklərin daşınması üçün ən qısa, səmərəli və təhlükəsiz nəqliyyat marşrutlarını formalaşdırdığını diqqətə çatdırıb. Azərbaycan ilə Ermənistan arasında sülh danışıqlarına toxunan B.Hüseynov iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası, eləcə də kommunikasiyaların açılması ilə bağlı danışıqların aparıldığını deyib.

AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov Azərbaycanın iqtisadi inkişafı, investisiya imkanları, ixrac potensialından danışıb. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən işlərdən danışan Z.Qədirov yerli və xarici investorlar üçün cəlbedici təkliflər və imtiyazlar təklif edən sənaye parkları, iqtisadi zonalar haqqında məlumat verib.

# "Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə yükdaşıma 60-100 milyon tona qədər arta bilər"



Bu sözləri jurnalistlərə açıqlaması zamanı Rusiyanın nəqliyyat naziri Vitali Savelev deyib.

***"Yaxın perspektivdə dəhlizlə yükdaşıma 7 milyon tondan 15 milyon tona çatacaq. Gələcəkdə isə bu, mərhələli şəkildə tədricən artacaq. Şimal-Cənub Nəqliyyat Dəhlizinin 162 kilometrlik Rəşt-Astara hissəsini İranla birlikdə inşa edəcəyik. Bu layihəni 2027-2028-ci ildə yekunlaşdırmağı düşünürük. Azərbaycan marşrutun öz ərazisindən keçən hissəsini yaxşılaşdırır ki, bu da ildə 7 milyon ton yük daşınmasına imkan verir"***, - deyə nazir nəzərə çatdırıb.

# *Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah*



***Sual-cavabı Bakı Dövlət Universitetinin dosenti, iqtisad elmləri namizədi Mehriban Yadulla aparır.***

**Sual: Gömrük nəzarətinin müəyyən formalarından azadetmə varmı?**

**Cavab:** Bununla bağlı Gömrük Məcəlləsinin 84-cü maddəsinə müraciət edəcəyik: Gömrük nəzarətinin müəyyən formalarından azadetmə Gömrük Məcəlləsi, gömrük işi üzrə digər qanunvericilik aktları və beynəlxalq müqavilələrlə müəyyən olunur:

*1. Azərbaycan Respublikası Prezidentinin və onunla birlikdə gedən ailə üzvlərinin şəxsi baqajı gömrük yoxlamasından azaddır.*

*2. Xidməti vəzifələrinin icrası ilə əlaqədar gömrük sərhədindən keçən Azərbaycan Respublikası Baş nazirinin, onun müavinlərinin, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) şəxsi baqajları gömrük yoxlamasından azaddır.*

*3. Öz yoluna davam edən xarici hərbi gəmilərin, hərbi hava gəmilərinin, eləcə də digər hərbi texnikanın gömrük yoxlamasından azad edilməsi dövlətlərarası sazişlərlə tənzimlənir.*

*4. Beynəlxalq müqavilələrə uyğun olaraq gömrük nəzarətinin müəyyən formalarından azadetmə bu sazişlər təsdiq edildikdən (ratifikasiya olunduqdan) sonra həyata keçirilir.*

# "Vladimir Putin və Heydər Əliyev Azərbaycan ilə Rusiya arasında dostluq, mehriban qonşuluq münasibətlərinin əsasını qoyublar"

Azərbaycan Prezidenti İlham Əliyev Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşdə Ulu Öndər Heydər Əliyevin xatirəsinə göstərdiyi ehtirama görə Rusiya Prezidenti Vladimir Putinə minnətdarlığını bildirib.

Azərbaycan dövlətinin başçısı deyib: ***"Əlbəttə, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə ehtiramla yanaşdığına görə Vladimir Vladimiroviç Putinə xüsusi təşəkkür sözləri ifadə edirəm. Biz yaxşı bilirik ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasında dostluq, mehriban qonşuluq münasibətlərinin əsasını məhz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev qoyublar. 2001-ci ildə Vladimir Vladimiroviç Putin Azərbaycana səfər etdi və bu, bizim birlikdə keçdiyimiz uzun bir yolun başlanğıcı oldu".***

# "Azərbaycan Rusiya ilə əlaqələrin inkişafından çox razıdır"

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşdə deyib. Azərbaycan dövlətinin başçısı vurğulayıb: *"Biz əlaqələrimizin inkişafından çox razıyıq. Artıq iki ildən çoxdur ki, 2022-ci ilin fevralında burada - Kremldə imzaladığımız və əsas siyasi sənəd olan, gələcəkdə münasibətlərimizin ardıcıl inkişafını müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə çərçivəsində işləyirik".*

# "BAM bütün XXI əsrdə böyük dərəcədə qlobal logistikanı müəyyən edəcək"

Bu fikri Rusiya Prezidenti Vladimir Putin aprelin 22-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşdə deyib.

Rusiyanın BAM sayəsində Sibirin, Uzaq Şərqin inkişafı, Sakit okean istiqamətində yükdaşımalarını həyata keçirmək üçün çox geniş imkanlar əldə etdiyini vurğulayan Rusiya dövlətinin başçısı qeyd edib ki, Şərqə tərəf dönüş əhəmiyyətli dərəcədə BAM-ın sayəsində mümkün olub.

# "Fransa, Hindistan və Yunanıstan Ermənistanı bizə qarşı silahlandırır, biz gözləyə bilmərik"



"Fransa, Hindistan və Yunanıstan Ermənistanı bizə qarşı silahlandırır, biz oturub gözləyə bilmərik".

Bu sözləri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışında deyib.

Həmin ölkələrin bunu açıq şəkildə həyata keçirdiklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Özü də onlar bunu açıq və nümayişkarانə şəkildə edirlər və hətta çalışırlar ki, bununla bizə nə isə sübuta yetirsinlər. Biz sadəcə oturub gözləyə bilmərik. Biz bu mövqeyi açıq şəkildə Ermənistan hökumətinə və Ermənistanın bu gün qayğısına qalmağa çalışan tərəflərə bildirmişik. Əgər özümüzə ciddi təhdid görsək, biz ciddi tədbirlər görməli olacağıq".***

# Dövlət əmlakının icarəyə verilməsindən büdcəyə daxilolmalar artıb

Cari ilin birinci rübü üzrə dövlət büdcəsinin gəlirləri 8544,8 milyon manat proqnoza qarşı 9234,3 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 689,5 milyon manat və ya 8,1 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 11,4 faiz və ya 944,3 milyon manat çoxdur.

Maliyyə Nazirliyindən bildirilib ki, hesabat dövründə icrası təmin edilmiş gəlirlər cari ilin dövlət büdcəsi gəlirlərinin 27,0 faizini təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,1 faiz bəndi çoxdur.

Bu ilin yanvar-mart aylarında dövlət büdcəsinin gəlirlərinin 4281,7 milyon manatı və ya 46,4 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 3195,3 milyon manatı və ya 34,6 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 1469,9 milyon manatı və ya 15,9 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, 159,4 milyon manatı və ya 1,7 faizi sair daxilolmaların, 118,8 milyon manatı və ya 1,3 faizi dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların, 9,2 milyon manatı və ya 0,1 faizi dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşür.

2024-cü ilin 1-ci rübündə dövlət büdcəsinin gəlirləri təsdiq edilmiş proqnoza nisbətən vergi orqanlarının xətti ilə 532,0 milyon manat və ya 14,2 faiz, gömrük orqanlarının xətti ilə 102,9 milyon manat və ya 7,5 faiz, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert üzrə 0,3 milyon manat, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 2,0 milyon manat və ya 27,8 faiz, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar və digər daxilolmalar üzrə 52,3 milyon manat və ya 23,2 faiz çox icra edilib.

Hesabat dövründə dövlət büdcəsinin gəlirləri 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert üzrə 1619,3 milyon manat və ya 2 dəfə, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 1,3 milyon manat və ya 16,5 faiz, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar və digər daxilolmalar üzrə 16,6 milyon manat və ya 6,3 faiz çox, vergi orqanlarının xətti ilə daxilolmalar üzrə 617,8 milyon manat və ya 12,6 faiz, gömrük orqanlarının xətti ilə daxilolmalar üzrə 75,1 milyon manat və ya 4,9 faiz az icra edilib.

# İnformasiya texnologiyalarına üstün dövlət baxışı



*Bəhruz Əliyev, İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

*(əvvəli ötən sayımızda)*

**İnformasiya məkanının informasiya təhlükəsizliyinin təmin olunması səviyyəsinin yüksəldilməsi**

Strategiyada nəzərdə tutulan bu məsəslə ciddi əhəmiyat daşıyır. İnformasiya məkanımızın təhlükəsizliyinin yüksəldilməsi və daimi təkminləşdirilməsi nəzərdə tutulmuşdur.

İnformasiya xidməti, elektron xidmət və texniki xidmət subyektlərində və onların fəaliyyəti üzrə müvafiq obyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsi fəaliyyətinin standartlara və qabaqcıl təcrübəyə uyğun formalaşdırılmasını təşviq etmək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, İN, ASİ, VXSİDA-dır.

"Ağıllı" sistemlərin (dronlar, pilotsuz aparatlar, humanoidlər, robotlar və s.) yaradılmasına, tətbiqinə və utilizasiyasına aid təhlükəsizlik tələblərini müəyyən etmək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, DTX, ETN-dir. Bu, 2023-2025 illər intervalında nəzərdə tutulmuşdur.

"Ağıllı" sistemlərin yaradılmasına, tətbiqinə və utilizasiyasına aid elmi, texnoloji, hüquqi və s. məsələlərin kompleks həlli sahəsində təkliflər vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, DTX, ETN-dir. Bu, 2024-2027 illər intervalında nəzərdə tutulmuşdur.

Milli rəqəmsal efir məkanının (simsiz şəbəkə və yeni nəsil rabitə texnologiyaları və s.) kibertəhlükəsizliyinə təşkilati və texnoloji dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə AŞ, ETN, DTX, XRİTDX-dir.

Audiovizual və onlayn media vasitələrinin informasiya təhlükəsizliyinə təşkilati və texnoloji dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə AŞ, ETN, DTX, XRİTDX-dir.

Milli rəqəmsal efir məkanı üçün minimal kibertəhlükəsizlik tələblərini müəyyən etmək və onların icrasına nəzarət mexanizmlərini yaratmaq əsas icraçı RİNN, digər icraçılar isə AŞ, ETN, DTX, XRİTDX-dir.

**Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi**

Cəmiyyətdə həyati funksiyaları təmin etmək üçün əhalinin sağlamlığına, təhlükəsizliyinə, iqtisadi və sosial rifahına, həmçinin dövlət qurumlarının fəaliyyətinin davamlılığına ciddi təsir göstərən infrastrukturların təhlükəsizliyi prioritet istiqamətlərdən biridir.

İnformasiya infrastrukturlarının təhlükəsizliyini, kritik informasiya infrastrukturlarının idarə olunmasını təmin etmək üçün təşkilati əsasların yaradılması, risklərin qiymətləndirilməsi və idarə olunması planının hazırlanması üçün əsas icraçı DTX, digər icraçı isə XRİTDX 2024-2025-ci illər intervalında nəzərdə tutulub.

Kritik informasiya infrastrukturlarının insidentlər zamanı bərpa planlarının hazırlanması üçün əsas icraçı DTX, digər icarçı isə XRİTDX, infrastruktur subyektləridir.

**İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində potensialın gücləndirilməsi, institusional bazanın inkişaf etdirilməsi**

Bu sahədə işlərin kompleks həllinin həyata keçirilməsindən, aparılan elmi tədqiqatlardan və onların nəticələrinin praktikaya tətbiqindən, təhsilin mövcud tələbata cavab verməsindən çox şey asılıdır. Bəzi tədbirləri göstərmək istərdim. Bu kimi tədbirlərin həyata keçirilməsi çox ciddi inkişafa səbəb olacaqdır.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işləri sırasından prioritet mövzuların tətbiqi məqsədilə seçilməsini təşkil etmək üçün əsas icraçı ETN, digər icraçılar isə RİNN, XRİTDX, DTX-dir. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində xarici ölkələrin elmi mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsinə, birgə elmi tədqiqat layihələrinin həyata keçirilməsinə, beynəlxalq seminar və konfranslarda iştirakın təmin edilməsinə təşkilati dəstək vermək üçün əsas icraçı ETN, digər icraçılar isə DTX, XİN, XRİTDX, RİNN-dir.

Kriptoqrafiyanın əsaslarının dərindən öyrənilməsini, bu sahədə elmi tədqiqatların aparılmasını, milli kriptoqrafik alqoritmin tətbiq olunduğu informasiyanın kriptoqrafik mühafizə vasitələrinin layihələndirilməsini və təkmilləşdirilməsini təmin edəcək yüksəkixtisaslı kadrların və səriştəli mütəxəssislərin hazırlanmasını təşkil etmək üçün, əsas icraçı DTX, digər icraçılar isə XRİTDX, ETN-dir. 2023-2024 illər intervalında nəzərdə tutulub.

Dövlət orqanlarında (qurumlarında) informasiya təhlükəsizliyi üzrə ixtisaslaşmış struktur bölmələrin yaradılması və onların müvafiq kadrlarla təminatının planlaşdırılması ilə bağlı təkliflər hazırlamaq üçün əsas icraçı DTX, digər icraçılar isə XRİTDX, ƏƏSMN, DİM, RİNN, ETN, MN-dir.

İnformasiya təhlükəsizliyi üzrə mütəxəssislərin tədris prosesinə cəlb olunması və tələbələrin təcrübə keçmələrinə şərait yaradılmasını təmin etmək üçün əsas icraçı ETN, digər icraçılar isə RİNN, DTX, XRİTDX, MN-dir.

İnformasiya təhlükəsizliyi sahəsində kadr hazırlığını təmin edən təhsil müəssisələri, eləcə də informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq və yerli şirkətlərlə birgə laboratoriyalar formalaşdırmaq üçün əsas icraçı İN, digər icraçılar isə DTX, ETN, RİNN, XRİTDX, XİN-dir. 2023-2027-ci illər intervalında nəzərdə tutulub.

İnformasiya təhlükəsizliyi üzrə ixtisaslaşan yeniyetmə və gənclərə hüquqi və texniki yardım göstərilməsi, istedadlı şəxslərə dəstək verilməsi ilə bağlı tədbirlər görmək üçün əsas icraçı RİNN, digər icraçılar isə DTX, ETN, XRİTDX-dir.

**İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində normativ bazanın təkmilləşdirilməsi**

Strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində normativ bazanın təkmilləşdirilməsi də nəzərdə tutulmuşdur.

Fərdi məlumatların işlənməsi və mühafizəsi sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübə əsas götürülməklə təkmilləşdirilməsi üçün əsas icraçı NK, digər icraçılar isə RİNN, DTX, XRİTDX, DİN, ƏN-dir.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində qabaqcıl beynəlxalq hüquqi və texniki normativ alətləri, praktiki tövsiyələri təşviq etmək, milli standartların davamlı təkmilləşdirilməsinə dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə DTX, XRİTDX, ETN İN-dir.

**İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi**

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində mədəniyyətin yüksəldilməsi daimi maarifçilik və müvafiq təlim-tədbirlərlə olur. Tədbirlər planında kifayət qədər sanballı məsələlər göstərilmişdir.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə maarifləndirmə tədbirlərinin keçirilməsini təşkil etmək, o cümlədən bu barədə televiziya proqramları, videoçarxlar hazırlamaq və nümayiş etdirmək, informasiya təhlükəsizliyi və kibercinayətkarlığa qarşı ictimai mübarizə üsulları və bu üsullardan istifadə barədə cəmiyyətin, fərdlərin bilik səviyyəsini yüksəltmək üçün əsas icraçı RİNN, digər icraçılar isə ETN, DTX, XRİTDX-dir.

Dövlət orqanlarında (qurumlarında), özəl təşkilatlarda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq – kibergigiyenanı təmin etmək məqsədilə tədbirlər görmək üçün əsas icraçı XRİTDX, digər icraçılar isə RINN, DİM, VXSİDA-dır. 2023-2027 illər intervalında nəzərdə tutulub.

Ailələrin, valideynlərin və uşaqların internetdəki təhlükələr barədə məlumatlandırılması üçün tədbirlər təşkil etmək üçün əsas icraçı AQUPDK, digər icraçılar isə RİNN, ETN, DİN, DTX-dir.

"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə milli onlayn məlumatlandırma mərkəzinin yaradılmasını, həmin mərkəzin beynəlxalq şəbəkələrə inteqrasiyasını təmin etmək üçün əsas icraçı AQUPDK, digər icraçılar isə RİNN, ETN-dir.

Təhsilin bütün səviyyələrində kibertəhlükəsizlik üzrə təhsil modulları hazırlamaq, eləcə də internetdə təhlükələr barədə materialları tədris resurslarına daxil etmək üçün əsas icraçı ETN, digər icraçılar isə RİNN, DTX-dir.

**İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə ölkədaxili və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi**

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik məsələləri, eyni zamanda tələb edir ki, milli və beynəlxalq səviyyədə əməkdaşlıq olsun. Kibertəhlükəsizlik məsələlərinin qlobal xarakterini nəzərə alaraq, bu məsələlər üzrə beynəlxalq səviyyədə də əməkdaşlıq günün tələbidir. Eyni zamanda, sənəddə özəl sektorla bağlı qeyd olunur ki: "Özəl sektor bir sıra kritik infrastrukturun sahibləri olmaqla yanaşı, həm milli informasiya təhlükəsizliyinin təmin olunmasına məsuliyyət daşıyır, həm də bu sahədə mühüm hüquq və vəzifələrə malikdir. Qeyd edilən səbəblərdən özəl sektor öz fəaliyyətinin təşkilində, dövlət qurumlarına və insanlara müxtəlif İKT xidmətlərinin göstərilməsində, İKT məhsulların təchizatında, İKT ilə əlaqəli digər işlərin görülməsində informasiya təhlükəsizliyi tələblərinə riayət etməlidir". Daha aydın göstərmək üçün, qeyd olunan bəzi məsələlərə baxmaq mümkündür.

İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması, o cümlədən insidentlərə qarşı tədbirlər görülməsi üçün dövlət orqanları (qurumları), özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq formalarını müəyyən etmək və onların hüquqi əsasını yaratmaqda əsas icraçı XRİTDX, digər icraçılar isə RİNN, DTX, DİN-dir. 2023-2024-cü illər intervalında nəzərdə tutulub.

Təhdidləri qiymətləndirmə və həlli yollarını müəyyənetmə sahəsində dövlət-özəl koordinasiya və məsləhətləşmə platformalarını yaratmaq və onların inkişafına dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə DTX, DİN-dir. 2023-2024-cü illər intervalında nəzərdə tutulub.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində fəaliyyət göstərən qabaqcıl onlayn təlim-tədris platformaları ilə əməkdaşlıq əlaqələri qurmaq üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, ETN, DİM-dir.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə beynəlxalq təlimlərdə, ekspert görüşlərində və müxtəlif tədbirlərdə mütəxəssislərin iştirakına təşkilati dəstək vermək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, MN, DTX, ETN, MB, XKX-dir.

İnformasiya təhlükəsizliyi subyektləri, o cümlədən Milli CERT və digər CERT-lər səviyyəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini, kibertəhlükəsizlik sahəsində beynəlxalq təcrübənin öyrənilməsini təşkil etmək üçün əsas icraçı RİNN, digər icraçılar isə XRİTDX, ETN, DTX, MB-dir.

Əhalinin fərdi məlumatlar sahəsində hüquqlarının qorunması üçün beynəlxalq miqyaslı operatorlarla (kontent daşıyıcılarla) əlaqələr yaratmaq üçün əsas icraçı RİNN, digər icraçı isə XİN-dir.

Qeyd olunanlar "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün strategiyası"nın həyata keçirilməsi ilə bağlı tədbirlər planından götürülmüşdür və konspektləşdirilmişdir. Daha geniş informasiya ilə sənədin özündən tanış ola bilərsiniz. Ümud edirəm bu sənədin cəmiyyət üçün nə qədər əhəmiyyətli və mükəmməl olduğunu qısa formada izah etmiş olduq. Daim təhlükələrdən uzaq olmaq arzusu ilə...

# COP29 qlobal problemlərin həllinə ciddi töhfə verə bilər

Bu barədə Trend-ə Printon universitetinin professoru Maykl Reynolds deyib.

"Azərbaycanda dəfələrlə olmuş və bu ölkə, onun zəngin tarixi və mədəniyyəti haqqında məlumatı olan şəxs kimi hesab edirəm ki, COP29 Azərbaycanın özünü hamımıza aid olan ətraf mühit məsələləri kimi ciddi problemlərin həllinə öz töhfəsini verə bilən ölkə kimi dünyaya göstərməsi üçün yaxşı imkandır", - o deyib.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29)




Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir.

# Azərbaycanda COP29-la bağlı vergi güzəştləri tətbiq ediləcək

Bu barədə məsələ Milli Məclisin müzakirə edilən Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlər-2024-cü il martın 1-dən 9 ay müddətinə gəlir vergisindən azad edilir.

Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Azərbaycan və İspaniya iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsini müzakirə edib

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun və "Madrid Biznes Forumu"nun birgə təşkilatçılığı ilə İspaniya şirkətlərinin nümayəndələri arasında görüş keçirilib. Tədbirin əsas məqsədi ispan şirkətlərini Azərbaycanın biznes və investisiya imkanları barədə məlumatlandırmaq olub.



AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev agentlik haqqında məlumat verib, bu cür tədbirlərin ölkələr arasında ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmin yaratdığını vurğulayıb. Bildirilib ki, ölkəmizin İspaniyaya qeyri-neft ixracının artırılması üçün biznes dairələri arasında əlaqələr genişləndirilməlidir və bu istiqamətdə AZPROMO aktiv tədbirlər görür. Özəl investisiyaların maliyyələşdirməsi üzrə ixtisaslaşan İspaniyanın dövlət şirkəti COFIDES-nin ilə görüşdə AZPROMO-nun fəaliyyət istiqamətləri, ölkəmizin, o cümlədən işğaldan azad olunmuş ərazilərimizin investisiya potensialı haqqında məlumat verilib. COFIDES-in nümayəndələri təmsil etdikləri qurum barədə bəhs edib, AZPROMO ilə qarşılıqlı faydalı layihələrin reallaşdırılması çərçivəsində fikir mübadiləsi aparıblar. Tərəflər həmçinin COP29-u qeyd edərək, tədbirin əməkdaşlıq üçün önəmli platforma kimi rolunu vurğulayıblar.

# Bu ilin I rübündə icmal büdcəsində 3 milyard manatdan çox qalıq yaranıb

2024-cü ilin yanvar-mart aylarında icmal büdcənin gəlirləri 12612,0 milyon manat, xərcləri isə 9263,1 milyon manat icra olunub.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1775,2 milyon manat və ya 23,7 faiz çoxdur.

İcmal büdcədə 3348,9 milyon manat büdcə profisiti yaranıb.

# Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi 44% çoxalıb



"Azərbaycan ilə Çin arasında ikitərəfli ticarət dövriyyəsinin həcmi ötən illə müqayisədə 44 faiz çoxalaraq, 3,1 milyard dollara çatıb". Bu fikri Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu Pekində keçirilən "Azərbaycanda investisiya və ticarətin təşviqi" adlı konfransda bildirib. Ticarət nümayəndəsi hazırda Çinin Azərbaycanın 4-cü ən böyük xarici ticarət tərəfdaşı, ikinci ən böyük idxal mənbəyi olduğunu deyib: "Azərbaycan hazırda Çinin Cənubi Qafqazdakı ən böyük ticarət tərəfdaşıdır".

# "Deloitte" Azərbaycanda fəaliyyətini genişləndirir

175 ildən çox tarixi olan "Deloitte" 150-dən çox ölkə və ərazidə xidmət göstərir. "Deloitte" qlobal olaraq "Fortune Global 500®" üzrə şirkətlərin təxminən 90 faizi və bundan əlavə, minlərlə özəl şirkətə audit və əminlik, vergi və hüquq, konsaltinq, maliyyə və risk üzrə qabaqcıl məsləhət xidmətləri göstərir.

Azərbaycanda isə "Deloitte" artıq 22 ildir ki, "Deloitte & Touche" Məhdud Məsuliyyətli Auditor Cəmiyyəti olaraq uğurla fəaliyyətini davam etdirir və fəaliyyət istiqamətlərini artırır. Qeyd edək ki, Bakı Ağ Şəhər ofis binasında yerləşən "Deloitte" Azərbaycan şirkəti fəaliyyətinin genişlənməsi ilə əlaqədar olaraq bu ilin aprel ayında eyni binada əlavə yeni ofisin açılışını qeyd etmişdir. Hazırda şirkət aktiv işə qəbul prosesini davam etdirir.

"Deloitte" daxilində aparılan optimizasiya tədbirləri çərçivəsində "Deloitte & Touche Regional Consulting Services Limited" şirkətinin Azərbaycan Respublikasında aktiv fəaliyyəti olmayan filialının ləğv edilməsi qərara alınmışdır. Bununla bağlı bildirmək istərdik ki, bu qərar "Deloitte & Touche" Məhdud Məsuliyyətli Auditor Cəmiyyətinin fəaliyyətinə təsir etmir və o, müştərilərə müvəffəqiyyətlə xidmət göstərməkdə və fəaliyyətini genişləndirməkdə davam edir.

# Yaxşı təhsil sistemi necə olmalıdır?

Ölkənin yaxşı təhsil sistemi olmasa, təhsil büdcəsi səmərəsiz israf ediləcək. Bəs yaxşı təhsil sistemi nədir, necə olmalıdır? Yaxşı təhsil sisteminin pis təhsil sistemindən fərqi nədir?

Belə bir deyim var: pis məktəb, pis müəllim, pis şagird yoxdur, pis təhsil sistemi var.

Bəs pis təhsil sistemi ilə yaxşı təhsil sisteminin fərqi nədir?

*"Gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".*

*Prezident İlham ƏLİYEV*

Yaxşı təhsil sistemi yaxşı müəllim, yaxşı müəllim isə yaxşı şagird yetişdirir. Belə təhsil sisteminin müəllimləri şaftalı sözünü və çubuqlu bölməni düz yazır, şagirdləri isə 20%-lik balla məktəb məzunu və ya tələbə olmurlar.

Yaxşı təhsil sistemi öz səhvlərini müəllimlərin və valideynlərin üstünə atmır, onları nüfuzdan salmır. Çünki təhsildə əsas simanın müəllim olduğunu yaxşı anlayır.

Yaxşı təhsil sistemi öz müəllimlərinin keyfiyyətli və fasiləsiz təkmilləşdirmə sistemini dağıdıb, bu işi özəl kursların öhdəsinə buraxmır.

Yaxşı təhsil sistemi öz nöqsanlarına qarşı daim mübarizə aparır, öz fəaliyyətini təkmilləşdirir. Yaxşı təhsil sistemi öz işini repetitorlara həvalə etmir, onları himayə etmir.

Yaxşı təhsil sistemində direktor və bütün müəllimlər məktəblinin dostudur, bu məqsədlə "əlavə dostlar" tutmağa, israfa ehtiyac qalmır.

Yaxşı təhsil sistemi öz universitetlərinə dəstək olur, onun problemlərini həll edir, onlardan ƏDV tələb etmir.

Yaxşı təhsil sistemi ölkəni beynəlxalq təhsil reytinqlərində uğurla təmsil edir, reytinqlərdə autsayder olmur, ölkə universitetlərinə digər ölkələrdən çoxsaylı tələbələr cəlb etməklə onun beynəlxaq nüfuzunu qaldırır.

Yaxşı təhsil sistemindən yalnız öz menecerləri yox, bütün xalq razı olur.

Yaxşı təhsil sisteminin mükəmməl təhsil siyasəti, uzunmüddətli və qısamüddətli inkişaf strategiyaları olur.

Yaxşı təhsil sisteminin menecerləri nəyi nə vaxt və necə edəcəyini yaxşı bilir.

Yaxşı təhsil sistemi yaxşı rəqəmsallaşır, universitetlərdə mükəmməl distant təhsil sistemi yaradır.

Yaxşı təhsil sistemi distant təhsilə qarşı 25 il mübarizə aparmır.

Yaxşı təhsil sistemi tənqidlərə dözümlü, müzakirələrə və əməkdaşlığa açıq, ideyalara dəstəkçi, inkişafa meyilli olub, sağlam kadr və şəffaf maliyyə siyasəti ilə formalaşır.

Yaxşı təhsil sistemi elmə dəyər verir və elmdən, alimlərdən faydalanır...

Kaş ki, bizdə də yaxşı təhsil sistemi olardı...

*"Təhsil millətin gələcəyidir".*

*Heydər Əliyev*

Pis təhsil sisteminin yaxşı təhsil sisteminə transformasiya edilməsi üçün o, davamlı və faydalı elmi-pedaqoji müzakirələr meydanı olmalı, düzgün qərarlar qəbul edilməli və bu qərarlar peşəkarlıqla icra edilməlidir.

Yeni eraya səmərəli və sürətli inteqrasiya pis təhsildən yaxşı təhsilə keçidi tələb edir. Çünki hər şey məhz təhsildən asılıdır.

**Dos. İlham Əhmədov**

# Layihənin icrası davam edir



Azərbaycan Respublikasının Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində "Gənclik və Maarifçilik" İB "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərlə bağlı gənclərin maarifləndirilməsi tədbirlərinin təşkili" layihəsinin icrası davam edir. Layihənin məqsədi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edilmiş inkişaf istiqamətləri ilə gəncləri yaxından tanış etmək, bu əsasda onların öz gələcək təhsil və karyeralarını planlaşdırmasına kömək olmaqdır. Məlum olduğu kimi, milli prioritetlərdə 5 istiqamət qeyd edilir: dayanıqlı, artan, rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış. Layihə çərçivəsində təhsil müəssisələrində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"lə bağlı gənclərin maarifləndirilməsi üçün dəyirmi masaların təşkili nəzərdə tutulub. Layihə çərçivəsində ADPU-nun tələbələri ilə bir sıra maarifləndirici söhbətlər aparılmışdır. Dekabr ayında başlanmış layihə 5 ay davam edəcəkdir.

# "Bakcell"in Baş İcraçı Direktoru Xankəndidə jurnalistlərlə görüşüb




Tədbir zamanı media nümayəndələrinin suallarını cavablandıran Dr. Klaus Müller azad olunmuş ərazilərdə qısa müddət ərzində şəbəkə infrastrukturunun yaradıldığını, ən müasir səs texnologiyası olan VoLTE xidmətinin təqdim edildiyini və Xankəndi şəhərində ilk mobil rabitə mağazasının Bakcell tərəfindən istifadəyə verildiyini bildirib. "Bakcell"in mətbuatda müzakirələrə səbəb olmuş yeniliklər vədi barədə suallara cavab olaraq, şirkətin Baş direktoru bildirib ki, Bakcell böyük dəyişikliklər astanasındadır və bu barədə 25 aprel tarixində ətraflı məlumat açıqlanacaq.

Həmçinin, Dr. Klaus Müller qeyd edib ki, 2024-cü ildə Bakcell bütün ölkə boyunca mobil rabitə və xidmət şəbəkəsini daha da genişləndirmək niyyətindədir.

# "Bakcell"dən 25 Apreldə 100 000 GB kütləvi hədiyyə

Son həftələrdə ölkə gündəmini həyəcanlı xəbərlərlə ələ alan "Bakcell" 25 apreldə 100 000 GB və digər sürpriz hədiyyələrin paylanılacağını elan edib. Deyəsən, "Bakcell"in son günlərdə 25 aprel tarixi ilə bağlı çağırışları artıq yaxın günlərdə hər kəsə aydın olacaq. Məşhur simaların çəkildiyi videolardan da məlum olur ki, 25 aprel 18:00-da Bakcell hər kəsi Bulvarda baş tutacaq təntənəli tədbirinə səsləyir.

# Mərkəzi Gömrük Hospitalında "Son mərhələ qaraciyər xəstəliyi və viral hepatitlər" mövzusunda Elmi Konfrans keçirilib






***23 aprel 2024-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının, "Azərbaycan Qastroenteroloqlar və Hepatoloqlar" İctimai Birliyinin, "Azərbaycan İnfeksion Xəstəlikləri və Kliniki Mikrobiologiya Cəmiyyəti"nin və Abbot şirkətinin birgə təşkilatçılığı ilə "Son mərhələ qaraciyər xəstəliyi və viral hepatitlər" mövzusunda elmi konfrans keçirilib.***

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov konfransı açaraq tədbir iştirakçılarını salamlayıb və bildirib ki, bu gün bu auditoriyada həm təcrübəli həkimlər, həm həkim-rezidentlər, həm də tələbələr iştirak edir. O, deyib: ***"Hər il dünyada 1 milyon 400 mindən çox insan hepatitlərə görə dünyasını dəyişir, 290 milyona qədər xəstə hepatitlərdən əziyyət çəkir. Bunlardan 250 mindən yuxarı hepatit B-nin payına, 40 milyondan artıq isə Hepatit C-nin payına düşür. Son zamanlar çox təəssüf ki, cəmiyyətimizdə bəzi insanlar hepatit diaqnozu qoyulanda özlərini narahat hiss edirlər, çalışırlar ki, bu barədə danışmasınlar. Halbuki, bu gün hepatit B-yə qarşı çox effektiv bir üsul var, onun profilaktikası da var, hepatit C-nin müalicəsi də bəllidir, sağalması da mümkündür".***

İdarə rəisi Ceyhun Məmmədov Azərbaycanda bu xəstəliklə bağlı aparılan işlərə də toxunaraq, qeyd edib ki, ölkəmizdə hepatitlərlə bağlı müxtəlif istiqamətlərdə işlər görülür. Belə ki, Səhiyyə Nazirliyinin nəzdində hepatitdən əziyyət çəkən xəstələrə yardım göstərən, onları dərmanlarla təmin edən xüsusi komissiya yaradılmışdır. Mərkəzi Gömrük Hospitalında Orqan transplantasiyası şöbəsi fəaliyyət göstərir və burada qaraciyər və böyrək transplantasiyası əməliyyatları həyata keçirilir. Bu, ona görə önəmlidir ki, ən ağır xəstələr üçün orqan köçürülməsi yeganə çıxış yoludur. Sevindirici haldır ki, qaraciyər transplantasiyası bizim Hospitalda İcbari Tibbi Sığortanın xidmətlər zərfinə daxil olub və tam ödənişsiz icra edilir.

Sonra salamlama nitqi ilə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov çıxış edib. O deyib: "Bu gün biz bir tibb müəssisəsi olaraq qürurla deyə bilərik ki, Mərkəzi Gömrük Hospitalı hepatitlərin müalicəsində mühüm nailiyyətlər qazanıb. Hospitalın Orqan transplantasiyası şöbəsində orqan köçürülməsi əməliyyatları İcbari Tibbi Sığortanın xidmətlər zərfi çərçivəsində uğurla icra edilir. Mərkəzi Gömrük Hospitalının yüksək qiymətə layiq olan bu təcrübələrinin digər tibb müəssisələri ilə paylaşılması çox mühüm önəm daşıyır. Yəni, hospitalın əməkdaşları bu sahədə olan təcrübələrini həm də digər müəssisələrin həkimlərinə çatdırırlar.

Elmi konfransda Mərkəzi Gömrük Hospitalının həkimləri: Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin rəisi, t.ü.f.d., ümumi cərrah, transplantoloq Mircəlal Kazımi "Son mərhələ qaraciyər yetməzliyi: qaraciyər transplantasiyası", Efferent terapiya şöbəsinin rəisi, həkim-nefroloq Mirmənsim Məmmədov "Hipoturenal sindrom" və həkim-infeksionist Mədinə Abdullayeva "Qaraciyər transplantasiyası sonrası infeksiyalar", İ.M.Seçenov adına Moskva Birinci Dövlət Tibb Universitetinin Bakı Filialının Daxili xəstəliklər kafedrasının dosenti, t.ü.f.d., həkim-hepatoloq Gülnarə Ağayeva "Viruslu hepatitlərin diaqnostika və müalicəsindəki yeniliklər" və MedEra hospitalının həkim-infeksionisti Azər Nağıyev "Qaraciyər sirrozunun diaqnostika və müalicə prinsipləri" mövzusunda çıxış ediblər.

Konfrans 4 DTT balı ilə qiymətləndirilmişdir.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# E L A N

**"AZSIĞORTA" ASC "Eurohome" MMC-nin (Bakı şəhəri, Binəqədi rayonu, Sulutəpə qəsəbəsi 1 VÖEN 1000018351) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir.**

**e-2-2 (113)-2016/2024 saylı kommersiya işi hakim cənab Kənan Hüseynovun icraatında olmaqla, 22.04.2024-cü il tarixə saat 15:30-a məhkəmə hazırlıq iclası təyin etmişdir.**




**Azəri Light və Brent markalı neftin bir barelinin 18 – 24 aprel tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500